

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 18 (23.660)

*28 yanvar 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Aydın Kərimovu Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi təyin olunması ilə əlaqədar videoformatda qəbul edib.

Dövlətimizin başçısı qəbulda çıxış edərək Şuşanın tarixi Azərbaycan şəhəri kimi xalqımızın qəlbində xüsusi yerə malik olduğunu vurğulayıb, onun işğal altına düşməsindən böyük faciə kimi bəhs edərək Şuşanın bərpa ediləcəyini, dirçəlmə prosesinin başlandığını deyib.

Ölkəmizin başçısı Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan etməsindən, "Xarı bülbül" festivalının, Vaqifin məqbərəsinin və Vaqif poeziya günlərinin bərpa edilməsinin zəruriliyindən danışıb. Qeyd olunub ki, Şuşaya gediş-gəlişin təşkil edilməsi üçün yol çəkilir. Füzuli hava limanı bu ilin sonuna qədər istifadəyə verilməlidir. Ölkəmizin başçısı dünyanın müxtəlif ölkələrində Şuşanın tarixi, işğal dövrü, bugünkü bərpa işləri ilə bağlı təqdimatın keçirilməsi, infrastruktur layihələrinin, şəhərsalma işlərinin düzgün aparılması ilə bağlı tapşırıqlar verib.

Prezident İlham Əliyev Şuşanın dirçəldilməsi işində Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsinin üzərinə çox böyük məsuliyyət düşdüyünü deyib, bu işdə fəal rol oynayacağına əminliyini ifadə edib.

Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov yüksək etimada görə ölkə başçısına minnətdarlığını bildirib, qarşısına qoyulmuş vəzifələrin, bütün tapşırıqların vaxtında və tələb olunan səviyyədə yerinə yetirilməsi üçün əlindən gələni edəcəyini diqqətə çatdırıb.

## Ötən ilin yekunları müzakirə olunub, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin 2020-ci il 30 dekabr tarixdə keçirilmiş altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasından irəli gələn vəzifələr və Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, onun yerli orqanları tərəfindən 2020-ci ildə görülmüş işlər və 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib. Komitənin sədri Vaqif Rəsulov çıxış edərək bildirib ki, 2020-ci ildə komitə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş sərəncamların icrası istiqamətində müvafiq tədbirlər həyata keçirmişdir.

Belə ki, Ali Məclis Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın müvafiq bəndinin icrası üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə muxtar respublikada əmək bazarının təhlilinə dair material, həmçinin əmək bazarını xarakterizə edən əsas göstəricilər hazırlanmış və Dövlət Statistika Komitəsinin internet saytında yerləşdirilmişdir.

Vurğulanıb ki, "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamında 2020-ci ildə nəzərdə tutulmuş tədbirlərin icrası həyata keçirilmişdir. Bununla yanaşı, müvafiq Dövlət proqramının icrası istiqamətində 2019-cu ildə istifadəyə verilmiş "Statistik Məlumatlar Sistemi"nin normal fəaliyyəti diqqətdə saxlanılmış, yeni proqram təminatlarının yaradılması, mövcud proqram təminatlarında yeniliklərin aparılması təmin edilmişdir.

"Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı tədbirlər haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli və 2019-cu il 18 yanvar tarixli sərəncamlarının icrası istiqamətində şəhər və rayon icra hakimiyyətlərindən daxil olmuş rüblük məlumatlar əsasında ailə təsərrüfatlarının və onların istehsal etdikləri məhsulların ümumi uçotu aparılmışdır.

Diqqətə çatdırılıb ki, Prezident cənab İlham Əliyevin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu ilin oktyabr ayında əhalinin növbəti siyahıyaalınması keçirilmişdir. Mühüm dövlət tədbirinin əsas icraçısı kimi Dövlət Statistika Komitəsi tərəfindən 2020-ci ilin yanvar ayında muxtar respublikanın şəhər və rayon statistika idarələrindən qəbul olunmuş əhalinin siyahıyaalınmasına aid materialların xüsusi proqram təminatına işlənilməsinə başlanılmış və iyun ayında başa çatdırılmış, siyahıyaalma və sorğu vərəqələrində olan məlumatların elektron bazası yaradılmışdır.

Qeyd olunub ki, 2020-ci ildə dövri olaraq sosial-iqtisadi inkişafa dair aylıq məruzələr hazırlanaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə, Nazirlər Kabinetinə və digər aidiyyəti orqanlara təqdim olunmuşdur.

İclasda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



***Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda keçirilən iclasda fondun icraçı direktoru Cəbi Quliyev məruzə ilə çıxış edib.***

Qeyd edilib ki, ötən il fondun təşkilatçılığı ilə gənclər arasında müxtəlif idman yarışları, mədəni tədbirlər, bilik yarışları, film nümayişləri təşkil olunub, gənclər arasında yaradıcılıq müsabiqələrinin keçirilməsi diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə hazırlanmış Tədbirlər Planına uyğun olaraq yeniyetmə və gənclərin milli mənlik şüurunun, vətənpərvərlik və vətəndaşlıq hissinin yüksəldilməsi, onların Azərbaycanın şanlı hərb tarixi ənənələri ilə tanış olmalarına şərait yaratmaq üçün filmlərin nümayişi, intellektual oyun, inşa yazı müsabiqəsi keçirilib. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi ilə birgə tələbələrin məhkəmə sahəsində bilik və bacarıqlarının təkmilləşdirilməsi, onların bu sahədə biliklərinin ortaya çıxarılması və gələcək üçün daha potensiallı kadrların yetişdirilməsi məqsədilə məhkəmə və icra prosesi simulyasiyaları təşkil edilib. Naxçıvan Dövlət Film Fondu ilə birgə milli kinonun təbliği, məktəblilərin kino biliyinin yoxlanılması və milli kinofilmlərə olan marağının artırılması məqsədilə "Bu kino ki var..." kinoviktorinasına start verilib. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Rəssamlar Birliyi ilə birgə ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri və istedadlı gənclər arasında "İdeal ailənin formulu: ənənəvi dəyərlər və müasirlik" mövzusunda VII muxtar respublika yazı, dekorativ-tətbiqi sənət və rəsm müsabiqəsi və "Ailə dəyərlərimiz film və fotolorda" mövzusunda V muxtar respublika yaradıcılıq müsabiqələri reallaşdırılıb.

Vurğulanıb ki, fond ötən dövr ərzində könüllülərlə iş sahəsində fəaliyyətini daha da genişləndirib, "Könüllülər ili" çərçivəsində çoxsaylı tədbirlər reallaşdırılıb.

Diqqətə çatdırılıb ki, ötən ilin noyabr ayı ərzində Azərbaycan Respublikası Gənclər Fondu tərəfindən elan olunmuş "Təhsil xərci" müsabiqəsinə muxtar respublikanın dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan tələbələrin müraciət etməsinə köməklik göstərilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunda fondun əməkdaşlarından ibarət komissiya yaradılıb. Həmin müsabiqədə qalib olan 74 tələbə birillik təhsil xərcindən azad edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.



Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətində keçirilən kollegiya iclasında xidmətin rəisi, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Azər Nağıyev məruzə edərək bildirib ki, 2020-ci ildə muxtar respublikada özəl sektorun inkişafına dövlət dəstəyi nəticəsində makroiqtisadi göstəricilər üzrə artım dinamikası davam edib, nəticədə, dövlət büdcəsi üzrə proqnozlar artıqlaması ilə icra olunub. Belə ki, hesabat dövründə Naxçıvan Muxtar Respublikasının vergi orqanları üzrə müəyyən olunmuş proqnoz 103,6 faiz yerinə yetirilib. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun büdcəsi üzrə proqnoz 120,1 faiz, Naxçıvan Muxtar Respublikası İşsizlikdən Sığorta Fondunun büdcəsi üzrə proqnoz isə 115,4 faiz icra olunub.

Qeyd edilib ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq 2016-2020-ci illərdə 2060 hüquqi və fiziki şəxslərdə araşdırma aparılmış, 1843 yeni əmək müqaviləsinin bağlanılmasına, 4395 şəxsin əməkhaqlarının əmək müqaviləsində real əməkhaqqı səviyyəsində göstərilməsinə nail olunub.

"Bir pəncərə" qeydiyyat sistemi vasitəsilə hesabat dövründə 37 kommersiya və publik hüquqi şəxs dövlət qeydiyyatına, habelə 7 qeyri-kommersiya hüquqi şəxs vergi uçotuna alınıb.

Bildirilib ki, muxtar respublika sakinlərinin maarifləndirilməsi istiqamətində vergiödəyiciləri ilə 12 görüş keçirilib, onların elektron ünvanına, ümumilikdə, 135 min 773 bildiriş və müraciət göndərilib. Publik hüquqi şəxs statuslu müəssisələrdə ödənişlərin onlayn və POS-terminallar vasitəsilə qəbulu sahəsində 2020-ci ildə 25 publik hüquqi şəxs statuslu müəssisədə 31 ədəd POS-terminal aparatı quraşdırılıb.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

* * *



Naxçıvan Müəllimlər İnstitutunun Elmi Şurasının genişləndirilmiş iclasında institutun rektoru Azad Novruzov çıxış edərək bildirib ki, hesabat ilində institutda 104 nəfərdən ibarət professor-müəllim heyəti tərəfindən 15 ixtisas üzrə bakalavr, 5 ixtisas üzrə isə magistr hazırlığı aparılıb. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 2020-ci il 30 sentyabr tarixli Qərarı ilə Naxçıvan Müəllimlər İnstitutunda pedaqogika üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini həyata keçirmək üçün Dissertasiya Şurası yaradılıb.

Qeyd edilib ki, bəhs olunan dövrdə fənn kurikulumlarının tətbiqində interaktiv təlim metod və üsullarından istifadəyə geniş yer verilməsi və fənlərin inteqrasiyasına diqqət artırılıb, ayrı-ayrı fənlər üzrə dərslik və proqramların ümumtəhsil məktəblərinin müəllimləri ilə müzakirəsinin keçirilməsinə nail olunub.

Bildirilib ki, hesabat ilində institutun profilinə uyğun elm sahələrinin istiqamətləri üzrə elmi-tədqiqat işləri yerinə yetirilib. Bəhs olunan dövrdə göstərilən elmi istiqamətlər üzrə kafedralarda, həmçinin İxtisasartırma və yenidənhazırlanma bölməsində 89 əməkdaş 89 mövzu üzrə elmi-tədqiqat işlərini icra edib. 2020-ci ildə institut əməkdaşlarının 366 əsəri, o cümlədən 6 monoqrafiyası, 7 kitabı, 24 tədris-metodik vəsaiti və fənn proqramı, 278 elmi və elmi-metodik məqaləsi, 51 tezisi çap olunub. Bunlardan 26 elmi məqalə və 2 tezis xarici elmi nəşrlərdə işıq üzü görüb. 2019-2020-ci tədris ilinin əvvəllərində institutun 8 kafedrası üzrə 91 müəllimin elmi rəhbərliyi altında 180 tələbə elmi-tədqiqat işi həyata keçirib.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**



# İqtisadiyyat

## Kənd təsərrüfatı yarmarkaları daxili bazarın qorunmasında böyük rol oynayır

***Alman dilindən tərcümədə "hər il keçirilən bazar" mənasını verən yarmarkalar müasir dövrdə pərakəndə ticarətin mühüm satış formalarından biridir. Bazar infrastrukturunda mühüm yer tutan yarmarkaları digərlərindən fərqləndirən əsas cəhətlərdən biri onların müəyyən dövrdən bir – həftədə bir və ya ildə bir neçə dəfə keçirilməsidir. Yarmarkaların mahiyyətinə görə fərqli cəhətlərindən biri də alqı-satqı əməliyyatlarında yalnız iki tərəfin – məhsul sahibinin və istehlakçının olmasıdır. Bütün bunlarla yanaşı, yarmarkalar fəaliyyət istiqamətlərinə görə universal, çoxsahəli və ixtisaslaşmış yarmarkalara bölünür. Naxçıvan Muxtar Respublikasında da yarmarka fəaliyyəti daim diqqət mərkəzində saxlanılaraq müntəzəm olaraq təşkil olunan iqtisadi tədbirlərdən biridir.***





Bu gün muxtar respublikamızda təşkil olunan yarmarkalar ixtisaslaşmış qrupa aiddir ki, buna da, əsasən, təhsil və kənd təsərrüfatı yarmarkalarını misal göstərmək olar. Təhsil yarmarkalarının təşkili mövsümi xarakter daşıdığından əhalinin daha çox müraciət etdiyi bazarlar kənd təsərrüfatı yarmarkalarıdır.

Qeyd etmək lazımdır ki, muxtar respublikada keçirilən kənd təsərrüfatı yarmarkaları mühüm tədbir kimi bir çox xarakterik xüsusiyyətlərə malikdir. Belə ki, Naxçıvan Muxtar Respublikası aqrar region olduğundan burada kənd təsərrüfatının mühüm inkişaf potensialı var. Son onilliklərdə muxtar respublikada kənd təsərrüfatının müxtəlif sahələri, o cümlədən meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi ilə bağlı qəbul edilən Dövlət proqramları muxtar diyarımızda kənd təsərrüfatı məhsullarının istehsal həcmini dəfələrlə artırıb. Statistikaya görə, ötən il muxtar respublikada 537 milyon manatdan artıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2019-cu illə müqayisədə 4,6 faiz çoxdur. Yeri gəlmişkən, bunu da vurğulamaq lazımdır ki, son illərdə muxtar respublikada kənd təsərrüfatı məhsullarının istehsal həcmindəki artım faizi digər sahələr üzrə məhsul həcmini xeyli qabaqlayır və bu amil aqrar sahədə qazanılmış mühüm nailiyyətlərdəndir. Ancaq hamımıza məlumdur ki, məhsulu istehsal etmək bir uğurdursa, onun bazarını təşkil etmək digər bir uğurdur. Bu baxımdan muxtar respublikada həmin məhsulların əsas satışı kimi yarmarkalar seçilib. İstər rayon mərkəzlərində, istərsə də paytaxt Naxçıvan şəhərinin Xətai küçəsindəki Mərkəzi Bazarda hər həftənin sonunda təşkil olunan kənd təsərrüfatı yarmarkaları yerli təsərrüfat sahiblərinin, eləcə də əhalinin ən çox üz tutduğu ünvanlardandır. Naxçıvanda dövlət tərəfindən təşkil olunmuş belə yarmarkalar mövsümi deyil, ilin bütün fəsillərində fəaliyyət göstərir. Muxtar respublikanın bütün bölgələrində kənd zəhmətkeşləri tərəfindən istehsal olunan məhsulların satışı üçün yarmarkalarda xüsusi yerlər ayrılır və hər bir təsərrüfat sahibi sərbəst şəkildə öz məhsulunu alıcılara təqdim edir. Naxçıvanda geniş yayılmış ailə təsərrüfatı birlikləri də bu cür yarmarkalardan yetərincə yararlanırlar. Məhsul istehsalçılarının heç bir vasitəçi olmadan və digər ödənişlərə cəlb edilmədən məhsulunu birbaşa alıcılara təqdim etməsi bazarda daim ucuzluğu təmin edir. Buna görə də kənd təsərrüfatı yarmarkalarında satılan məhsullar digərlərindən daha ucuz olur. Nəticədə, istehlakçılar hər həftə yerli, ekoloji cəhətdən sağlam və keyfiyyətli məhsulları münasib qiymətə almaq imkanı əldə edirlər. Digər tərəfdən, yerli məhsulların satışı üçün yaradılmış bu şərait daxili bazarı qorumaqla yanaşı, məhsul bolluğuna da imkan verir ki, bu da, son nəticədə, qiymətlərin münasibliyinə öz təsirini göstərir.

Kənd təsərrüfatı məhsulları yarmarkalarının həftəlik təşkili muxtar respublikada alıcılıq vərdişlərini də stimullaşdırır. Bu nə deməkdir? Uzun illər dünyanın müxtəlif ölkələrində əhalinin alıcılıq qabiliyyətini və vərdişlərini araşdıran sosioloqlar belə qənaətə gəliblər ki, "həftədə bir dəfə bazarlıq" prinsipi ailələri daha çox qane edir. Adətən, həftə sonlarına, xüsusilə də şənbə günlərinə təsadüf edən bu cür bazarlıqlar (bir çox ölkələrdə yarmarka tipli bazarlar həftənin digər günlərinə də təsadüf edir) ailə üzvlərinin digər fəaliyyətlərinə mənfi təsir göstərmir. Ailələrin istirahət və əyləncə vərdişlərinin təqvim üzrə ənənəvi qərarlaşması şənbə günlərinin bu cür bazarlıqlar üçün ideal gün olduğunu təsdiq edir. Nəzərə alaq ki, gündəlik çörək və göyərti tələbatını çıxmaqla, digər zəruri ərzaq məhsullarını həftəlik müddətə almaq və istifadə etmək mümkündür. Bu prinsip həm də ailə üzvlərinin həftənin digər günlərindəki yol verəcəyi vaxt itkisinin qarşısını alır. Bunu da əlavə edək ki, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarında yerli sahibkarlıq subyektləri tərəfindən istehsal olunan digər qablaşdırılmış ərzaq məhsullarının satışına da şərait yaradılır ki, bu da daxili bazarın qorunmasına öz töhfəsini verir. Təqdirolunası haldır ki, artıq muxtar respublikamızın rayon mərkəzlərində, eləcə də Naxçıvan şəhərində ailə təsərrüfatı məhsulları yarmarkaları da təşkil olunur ki, bu da belə təsərrüfatlarda istehsal olunan məhsulların satışına əlavə imkanlar yaradır. Xatırladaq ki, ötən il Naxçıvan şəhərindəki Mərkəzi Bazarda, ümumilikdə, 40-a yaxın kənd təsərrüfatı yarmarkası təşkil olunub və hər yarmarkada 100 tondan çox məhsul satılıb.

*Beləliklə, istehsalçı və istehlakçını vasitəçi olmadan üz-üzə görüşdürən, yerli məhsullarımızın satışına və təbliğinə geniş imkanlar açan, süni qiymət artımına maneə yaradan, bazardakı bolluğu təmin edən kənd təsərrüfatı yarmarkaları daxili bazarın inkişaf etdirilməsində əsas istiqamətlərdən biri kimi mühüm rol oynayır.*

✍ **Səbuhi HƏSƏNOV**

## Aqrar sahənin inkişafı diqqətdə saxlanılıb

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən dekabr ayında kənd təsərrüfatının müxtəlif sahələri ilə əlaqədar müşavirələr, tarla seminarları və maarifləndirmə tədbirləri həyata keçirilmiş, iştirakçılara payız əkinlərinin optimal müddətdə başa çatması, şumdan qabaq mineral və üzvü gübrələrin torpağa verilməsi, keyfiyyətli toxum tədarükü və toxumun dərmanlanması, əkinlərin şırım üsulu ilə keçirilməsinin əhəmiyyəti barədə söhbətlər aparılıb. Nazirliyə payızlıq taxıl əkinləri ilə əlaqədar müraciət edən Kəngərli rayonundan 6, Babək rayonundan 4, Culfa rayonundan 2 torpaq mülkiyyətçisinə lazımi məsləhətlər verilmişdir. Culfa rayon Yaycı kəndində sarımsaq bitkisinin əkilib-becərilməsi və aqrotexnikası mövzusunda sahibkarlarla görüş keçirilmiş, onlara əkinin aparılması barədə məsləhətlər verilmişdir. Şərur, Babək və Kəngərli rayonlarında təsərrüfat sahibləri ilə meyvə və üzüm bağlarına dondurma suyunun verilməsinin əhəmiyyəti, zərərvericilərə qarşı kimyəvi və bioloji mübarizə tədbirləri, yaz-tarla işlərində iştirak edəcək texnikaların və aqreqatların saxlanılması barədə fərdi söhbətlər aparılmışdır.

Hesabat ayında "Araz" Elm-İstehsalat Birliyinin Elmi Şurasının iclası keçirilmiş, aparılan elmi-tədqiqat işlərinin nəticələri araşdırılmış və yekun hesabatları hazırlanaraq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Elm və İnnovasiyalar Mərkəzinə göndərilmişdir. Birliyin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsində Naxçıvan Dövlət Universitetinin əməkdaşı tərəfindən gətirilən 26 torpaq nümunəsi analiz olunmuş və nəticələri hesablanaraq yazılı məlumat verilmişdir.

Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin əməkdaşları istixana təsərrüfatlarında xəstəlik və zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında aparılması haqqında təsərrüfat sahibləri ilə görüşlər keçirmişdir. Ay ərzində toxumçuluq təsərrüfatı və fermerlər tərəfindən laboratoriyaya gətirilən toxumlar analizdən keçirilmiş, nəticəsi analiz aktı formasında onlara təqdim olunmuşdur. Heyvandarlıq təsərrüfatlarında mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, qış otlaqlarından səmərəli istifadə olunması, 2020-2021-ci illərin qışlama mövsümünün gedişi və qarşıda duran vəzifələrlə bağlı fərdi qaydada maarifləndirici görüşlər keçirilmişdir.

***Naxçıvan Muxtar Respublikası***
***Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Sahibkarlığın və iqtisadiyyatın inkişafı dövlət siyasətinin əsasını təşkil edir



***Son illər ərzində muxtar respublikada irimiqyaslı və hərtərəfli iqtisadi islahatlar uğurla reallaşdırılmış, həyata keçirilən davamlı tədbirlər sayəsində əlverişli biznes və investisiya mühiti formalaşdırılmışdır.***

Müasir zəmanəmizin bütün çağırışlarına tam cavab verən çoxşaxəli və sənayenin dinamik inkişafında xüsusi önəm daşıyan yeni-yeni qabaqcıl müəssisələr fəaliyyətə başlamışdır. Sevindirici haldır ki, həmin müəssisələr arasında həm daxili bazarın tələbatını ödəmək qabiliyyətində olan, həm də ixracyönümlü məhsul buraxan istehsal sahələri çoxluq təşkil edir.

Sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizmlərinin və təşviq alətlərinin tətbiqi, sahibkarların güzəştli maliyyə resurslarına çıxış imkanlarının sadələşdirilməsi, ümumilikdə, özəl bölmənin inkişafını stimullaşdırmaqla yanaşı, istehsal prosesi zamanı yaranan xərclərin əhəmiyyətli hissəsinin azalmasına səbəb olmuşdur. Bu da, öz növbəsində, məhsulun maya dəyərinin aşağı düşməsinə imkan verməklə istehsal olunan məhsulların rəqabətqabiliyyətliliyinin yüksəlməsinə şərait yaratmışdır.

Bu baxımdan Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafında, əhalinin işgüzarlıq fəaliyyətinin artırılmasında, müasir texnologiyaların tətbiqinə əsaslanan istehsal və emal sahələrinin, həmçinin müasir infrastrukturun yaradılmasında dövlət maliyyə dəstəyi əhəmiyyətli investisiya mənbəyidir.

Bu məqsədlə 2020-ci ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən müxtəlif sahələr üzrə 142 layihənin maliyyələşdirilməsinə 15 milyon 577 min manat məbləğində güzəştli kreditlər ayrılmışdır. Bu kreditlərin 11 milyon 798 min manatı yeni emal müəssisələrinin yaradılması və mövcud müəssisələrin fəaliyyətinin stimullaşdırılması məqsədilə sənayenin müxtəlif sahələrinə yönəldilmişdir.

Güzəştli dövlət maliyyə dəstəyindən yararlanmaqla rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən sənaye müəssisələrinin yaradılması müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması ilə yanaşı, ixrac potensialının artırılmasında da əhəmiyyətli rol oynayır.

Həmçinin 2020-ci ildə kənd təsərrüfatı sahəsində yeni investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi, məhsuldarlığın ilbəil artması ilə bağlı meyvə-tərəvəz məhsullarının tədarükünün daha səmərəli təşkili sahəsində işlər davam etdirilmişdir. Belə ki, süd məhsullarının istehsalı və qablaşdırılması, quşçuluq, arıçılıq, bağçılıq, əkinçilik, qovurma istehsalı, fermerlərin tələbatdan artıq istehsal etdikləri kənd təsərrüfatı məhsullarını uzun müddət saxlamaları üçün soyuducu anbar və əhalinin tərəvəz məhsulları ilə fasiləsiz təminatı üçün istixana kompleksi sahələrinin yaradılmasına Sahibkarlığın İnkişafı Fondu tərəfindən 131 layihə üzrə 2 milyon 831 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir. O cümlədən ötən il fond tərəfindən 3490 kvadratmetr sahəsi olan 3 istixana təsərrüfatının yaradılmasına 27 min manat, ümumi tutumu 1720 ton olan 6 soyuducu anbarın yaradılmasına 821 min manat güzəştli kredit vəsaiti ayrılmışdır.

Qeyd edək ki, dövlət maliyyə dəstəyi hesabına ümumi tutumu 1050 ton olan 2 soyuducu anbarın yaradılması davam etdirilir.

Sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyi son illərdə muxtar respublikanın rayon və kəndlərində xeyli sayda kiçik müəssisələrin yaranmasına və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə təsir edən mühüm faktorlardandır.

Bu gün muxtar respublikada ərzaq təhlükəsizliyinin təminatında, əhalinin meyvə-tərəvəz və konservləşdirilmiş məhsullarla təmin olunmasında aqrar sahədə aparıcı mövqeyə malik ailə təsərrüfatlarının rolunu xüsusi qeyd etmək lazımdır. Ötən il bu istiqamətdə müəyyən edilmiş tapşırıqlara müvafiq olaraq yeni ailə təsərrüfatlarının yaradılmasının dəstəklənməsi, onların fəaliyyətinin stimullaşdırılması və istehsal sahələrinin genişləndirilməsi üçün 50-yə yaxın ailə təsərrüfatına 603 min 600 manat dövlət maliyyə dəstəyi göstərilmişdir.





Həmçinin il ərzində mütəmadi olaraq fond tərəfindən verilmiş kreditlərin iqtisadi səmərəliliyi araşdırılmış, təyinatı üzrə istifadəsinə nəzarət etmək məqsədilə sahibkarlıq subyektlərində mütəmadi olaraq monitorinqlər keçirilmiş, kreditlərin ödəmə müddətləri və vaxtında geri qaytarılması istiqamətində maarifləndirmə işləri aparılmışdır.

Bütün bu faktlar bir daha onu göstərir ki, muxtar respublikada sahibkarlığın inkişafı daim dövlət dəstəyi və qayğısı ilə əhatə olunmuş və bundan sonra da davam etdiriləcəkdir. Çünki bu, dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

***Naxçıvan Muxtar Respublikası***
***İqtisadiyyat Nazirliyinin***
***mətbuat xidməti***

**Redaksiyamızın qonağı**

# Naxçıvandan Şuşaya uzanan qələbə yolu

## "Şuşa uğrunda döyüşən Naxçıvan xüsusi təyinatlıları qeyri-adi iradə, böyük fədakarlıq və qəhrəmanlıq göstərdilər"

*Ölkəmizin böyük qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsi günlərində həm ön, həm də arxa cəbhədə xalqımız üçün səciyyəvi olan ən mühüm cəhətlərdən biri milli birlik, həmrəylik və vətənpərvərlik oldu. Qarabağ müharibəsi onu göstərdi ki, Azərbaycan xalqının ərazi bütövlüyü hər bir vətəndaş üçün bütün arzu və istəklərdən öndə dayanır. Ordumuz işğal edilmiş torpaqlar uğrunda son damla qanına kimi mübarizə apararaq bizə qələbə sevinci yaşatdı. Bu qələbədə həm də birliyimizin rolu misilsizdir. Tarixə qızıl hərflərlə yazılan İkinci Qarabağ müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun əsgər və zabitlərinin göstərdiyi şücaət muxtar respublikada hərbçilərin, eyni zamanda gənclərimizin necə bir vətənpərvər ruhda böyüməsinin əyani sübutudur. Redaksiyamızın qonağı Vətən müharibəsində böyük qəhrəmanlıq göstərən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun zabiti, "İgidliyə görə", "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları və "Azərbaycan bayrağı" ordeni ilə təltif edilən Tehran Mənsimovdur. Onunla söhbətimizdə bir daha həmin günlərə qayıtdıq.*

***– Vətən müharibəsinin qəhrəmanı, hörmətli polkovnik, ilk olaraq sizi Böyük Qələbə münasibətilə təbrik edirik...***

– Çox sağ olun. Ön cəbhədə biz döyüşsək də, arxa cəbhədəkilərin də uğurlarını unutmaq olmaz.

***– Çoxları üçün Tehran Mənsimovun həyatı maraqlıdır. Siz özünüzü oxuculara necə təqdim edərdiz?***

– (Gülür). Ən yaxşısı başdan başlamaqdır...

***– ...Siz artıq başlanılmış işi tamamlayanlardansınız...***

– Dövlətimizin və güclü ordumuzun sayəsində... 1972-ci ildə Qusar rayonunun Düstahir kəndində anadan olmuşam. 1989-cu ildə məktəbi bitirdikdən bir il sonra Sovet İttifaqı zamanında ordu sıralarında xidmətə başlamışam. 1992-ci ildə xidməti başa vursam da, Qarabağ müharibəsi başladığına görə Azərbaycan Silahlı Qüvvələrində xidmətimi davam etdirmişəm. O vaxt vahid birlik, komandanlıq olmadığından könüllü müraciət etmişdim. Peşəkar zabit çatışmazlığı mövcud idi. Demək olar ki, ovaxtkı tabor komandirləri ixtisasından asılı olmayaraq, yerli ağsaqqallardan, hörmətli şəxslərdən seçilirdi. Bizə tabor komandiri təyin olunan şəxs ixtisasca çilingər olsa da, çox qabiliyyətli bir insan idi. O vaxt başa düşürdük ki, vahid ordu olmadığından bizi çox ağır günlər gözləyir. Hər tərəfdən hücum təhlükəsi ilə üz-üzə idik. Başçılıq etdiyim taqım düşmən hücumunu dəf etmişdi. Füzuli rayonunun Qacar kəndində yüksəkliyin əldə saxlanılmasından sonra artıq kollektiv içərisində rəğbət qazanmışdım. Bundan sonra briqada komandiri zabit olmağı təklif etdi. Həmin vaxt Bakı Birləşmiş Zabitlər Məktəbində kəşfiyyat kursları başlamışdı. 1992-ci ilin fevral ayında həmin məktəbə daxil oldum. Bir il sonra kursda 354 nəfərin birincisi olduğuma görə leytenant rütbəsi aldım və yenidən Füzuli bölgəsinə yola düşdüm. İkinci Qarabağ müharibəsində qazandığım uğurlarda Birinci Qarabağ müharibəsində qazandığım təcrübənin rolu vardır.

24 avqust 2011-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına daxil olmuşam və 26 iyun 2013-cü ildə həmin akademiyanı fərqlənmə ilə – birinci olaraq bitirmişəm. Taqım komandirliyindən briqada komandirliyinə kimi Qarabağ bölgəsində xidmət etmişəm. 4 iyul 2013-cü ildən Naxçıvan Əlahiddə Ümumqoşun Orduda xidmətə başlamışam və Şahbuz rayonundakı hərbi hissənin komandiri olmuşam. Hazırda Döyüş Hazırlığı və Tədris İdarəsinin rəisi vəzifəsində xidmət edirəm.

***– Bu müddət ərzində bir çox məlumatlar paylaşıldı, xəbərlər dərc olundu. Amma bizim diqqətimizi daha çox ümummilli lider Heydər Əliyevlə cəbhə bölgəsində çəkilmiş bir fotonuz çəkdi. Həmin hadisəni necə xatırlayırsınız?***

– 1994-cü il Horadiz istiqamətində uğurlu əməliyyat aparılmış, hansı ki həmin dövrdə ulu öndərimiz xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtmışdı, 22 kənd, Horadiz qəsəbəsi uğurla müdafiə olunmuşdu. Bu uğurlu əməliyyatda iştirak edən 160 nəfərdən biri də mən idim. Baş leytenant kimi o əməliyyatdan sonra tabor komandirini əvəz edirdim. Dedilər ki, ulu öndər taborla görüşməyə gəlir. O zamanlar böyük kazarmalar yox idi. Kazarmaları işğaldan azad edilmiş komalar əvəz edirdi. Ulu öndərimiz gəldi, hər birimizlə tək-tək görüşdü. Ulu öndər bizimlə çox səmimi şəkildə söhbət etdi, zarafatlaşdı, silahı əlinə götürüb nişan almağı göstərdi. Görüşərkən mənə "rütbən nədir?" – dedi. Dedim "baş leytenant". Dedi "bu gündən kapitansan". Elə ilk rütbəmi də ulu öndərimiz verib.

***– Bildiyimizə görə bu görüş sizi yenidən orduya, hərbi peşəyə bağlayıb...***

– Etiraf edim ki, həmin vaxt ulu öndərin fikirləri, dəyərli sözləri, eyni zamanda həmin günkü hadisə mənə xidmət etməyim üçün əlavə stimul verdi. Mənim uğurlu hərbi yolum məhz ulu öndərin adı ilə bağlıdır.

***– Vətən müharibəsində ordumuzun qələbə qazanmasının əsas səbəbi kimi nəyi göstərə bilərsiniz?***

– Təbii ki, ilk növbədə, vahid komandanlığın



olmasını. Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin rəhbərliyi və apardığı uğurlu ordu quruculuğu siyasəti qələbənin əsasını təşkil etdi.

***– Ordu quruculuğu Naxçıvan Muxtar Respublikasında əsas məsələlərdən biridir. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı...***

– Hər kəs bilir ki, Naxçıvan Əlahiddə Ümumqoşun Ordu böyük gücə malikdir. İstər peşəkar zabitlərin olması, istərsə də yeni, müasir silah-sursat, texnikalarla təmin edilməsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bilavasitə rəhbərliyi ilə görülən işlər gücümüzü daha da artırır. Xüsusilə bu prosesdə təlimlərin rolu danılmazdır. Hər il keçirilən taktiki təlimlər inkişafımızın təməl prinsiplərindəndir. Ona görə də mən fəxrlə deyirəm ki, Naxçıvan Əlahiddə Ümumqoşun Orduda peşəkar zabit və döyüşçü kimi özümü formalaşdırmışam. 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun həyata keçirdiyi peşəkar əməliyyat nəticəsində Günnüt kəndi daxil olmaqla, yaxınlıqdakı Qızılqaya və Qaraqaya dağlarında mühüm hərbi-strateji əhəmiyyətə malik yeni mövqelər, ümumilikdə, 11 min hektara yaxın ərazi işğaldan azad edildi. Günnüt əməliyyatı Naxçıvanda əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulan ordu quruculuğunun uğurla davam etdirildiyini, Naxçıvanın müdafiə təhlükəsizliyinin təmin olunduğunu bir daha sübut etdi. Ümumiyyətlə, Naxçıvan Əlahiddə Ümumqoşun Orduda əsgərlərə, hərbçilərə göstərilən diqqət və qayğı yüksək səviyyədədir. Bunu istər şəxsi heyətin yaşayış və xidmət şəraitinin ən müasir səviyyədə qurulması, istər onların sosial-məişət şəraitinin yaxşılaşdırılması, istərsə də ordu ilə olan həmrəylikdə – dövlət-xalq-ordu birliyində görmək mümkündür. Ali Məclis Sədrinin vaxtaşırı hərbi hissələrdə, sərhəd bölgələrində olması, əsgərlərlə görüşməsi hərbçilərimizdə böyük ruh yüksəkliyi yaradır. Döyüş hazırlığının idarə rəisi kimi onu deyə bilərəm ki, Ali Məclis Sədrinin təsdiq etdiyi plana uyğun olaraq Naxçıvan Muxtar Respublikasının təhlükəsizliyini təmin etmək qarşımızda əsas tapşırıqdır. Naxçıvan Əlahiddə Ümumqoşun Ordu müdafiəni təmin etməklə yanaşı, həm də istənilən döyüş tapşırığını yerinə yetirmək gücündədir. Bu öz təsdiqini Vətən müharibəsində tapdı. Ali Məclis Sədrinin müəyyənləşdirdiyi "Hamı bir nəfər, bir nəfər hamı üçün!" şüarı gücümüzün, birliyimizin, uğurumuzun əsasında dayanan amildir. Çünki birlik yoxdursa, uğur qazanmaq da çətindir.

***– Vətən müharibəsində keçdiyiniz döyüş yolundan danışmağınızı istərdik.***

– Əvvəlcə onu deyim ki, cəbhəyə yola düşərkən söz verdim ki, Ali Məclis Sədrinin bizə göstərdiyi etimadı doğruldacaq, zəfərə doğru irəliləyəcəyik. Əgər sağ qalsam, qələbə müjdəsini özüm verəcəm. Çox şükür ki, sözümün üstündə durduq. Döyüş zamanı biz Hadrut-Füzuli-Xocavənd, Hadrut-Şuşa, Hadrut-Xankəndi istiqamətlərində bölündük. Birinə şəhidimiz Anar Əliyev, digərinə isə mən rəhbərlik edirdim. İlk döyüşdən bir epizodu sizinlə paylaşmaq istəyirəm. Hadrut istiqamətində döyüşlər gedirdi. Oranın çox mürəkkəb reylefi var: həm dağlıq, həm də sıx meşəlikdir, ərazini yaxşı tanımırdıq. Çünki uzun illərdir, ermənilərin işğal etdiyi bir yer idi. Bilirdik ki, nə qədər təmizləsək də, bəlli olmayan yerlər də var. Şəhərdə pusqu qurmuşdular. Əsgərlərimiz ilk dəfə döyüşə girməsinə baxmayaraq, pusqunu yardılar. Onu deyim ki, verilən hər bir tapşırığı alnıaçıq yerinə yetirə bildik.

***– Şuşaya girən ilk qəhrəmanlarımızdan biri siz olmusunuz. Həmin an hansı hissləri yaşadınız?***

– Şuşaya gedən yol var. Həmin yol açılmadığına görə orada mürəkkəb, qızğın döyüşlər gedirdi. Düşmən bütün gücünü həmin əraziyə cəlb etmişdi. Minalanmış sahələrdə canlı qüvvə və zaman itkisinə yol verməmək üçün bizə yeni tapşırıq gəldi. Əlavə olaraq, 3 briqada mənim tabeçiliyimə verildi. Xüsusi təyinatlılara şərait yaratmaq üçün Daşaltı bölgəsini nəzarətə almalı, oradakı düşmən qüvvələrini məhv etməli idik. O vaxta kimi xüsusi təyinatlılar Şuşaya girəcəkdilər. Onlar meşədən keçib Şuşaya girənə qədər döyüşüb düşməni öz üzərimizə çəkməli idik. Həmin gün şəhidlərimizin qanı bahasına hədəfə



çatdıq və noyabrın 4-də Daşaltını işğaldan azad etdik. Sonrakı günlərdə də düşmənin saysız əks-hücumlarını dəf etdik. Bu döyüşlərdə Naxçıvan xüsusi təyinatlılarının şücaətini xüsusi vurğulamaq istəyirəm. Xüsusilə Anar Əliyev və Nihad Babayevi, böyük qəhrəmanlıq göstərən Renat Şıxnəbiyev, Əli Kərimov və Elnur Şirinovun igidliyi gələcək nəsillərimiz üçün örnəkdir.

Ermənilər deyirdilər ki, biz vururduq, Azərbaycan hərbçiləri yenidən qalxaraq üzərimizə gəlirdi. Həqiqətən də, həmin döyüşlərdə Naxçıvan xüsusi təyinatlıları qeyri-adi iradə, böyük fədakarlıq və qəhrəmanlıq göstərdilər... Noyabrın 6-da artıq xüsusi təyinatlılarımız Şuşa yaxınlığında yaxın təmas döyüşünə keçmişdilər. Döyüşən 4 hərbi hissənin hər birində Naxçıvan xüsusi təyinatlıları var idi. Ayın 7-si artıq Şuşaya şanlı bayrağımızı sancdıq, ilk azan oxundu. Bu hissləri sözlərlə ifadə etmək çox çətindi. Oxunan azan səsi və Dövlət Himnimizi eşidən yaralılarımıza, sanki yenidən həyat verilirdi. Şuşa azad olunandan dərhal sonra ilk ürəyimdən keçən namaz üstdə şəhid olan qəhrəman oğullarımızın ruhuna və igid döyüşçülərimizə dua etmək, Allaha şükranlığımı sevinc göz yaşları ilə çatdırmaq oldu. Düşmən sonra da əks-hücuma keçdi və bu hücumların da qarşısı alındı. İgidlərimiz canları bahasına Şuşanı qoruyub saxladı. Ölkənin müxtəlif yerlərində bu qələbəmizi coşqu ilə qarşılayan xalqımızın sevinci bizə daha böyük ruh yüksəkliyi verirdi.

Onu da vurğulayım ki, Naxçıvan xüsusi təyinatlıları Hadrut şəhəri və ətrafında olan yüksəkliklərin, Qarakollu, Edili, Axullu, Düdükçü, Zərgər, Qaraçuğ, Yuxarlı Yağlıvənd, Veysəlli, Meşdağlar, Domi, Tuğ, Çanaqçı, Sığnaq, Qacar, Divanalılar kəndlərinin, eləcə də Daşaltı və Şuşanın azad olunmasında müstəsna xidmətləri olub. Hətta bir çox strateji yüksəkliklərin ələ keçirilməsində iştirak ediblər. Bu müharibədə oğullarımızın qəhrəmanlıqları ortaya çıxdı. Fiziki göstəricisindən asılı olmayaraq, elə əsgərlər, hərbçilər var idi ki, loru dillə desək, boyundan böyük qəhrəmanlıq, cəsarət göstərirdilər. Nəinki şəhidlərimiz, bu gün sağ qalan hərbçilərimiz var ki, onlar öz qanları bahasına tarix yazıblar. 44 günlük müharibə dünya hərb tarixində yeni bir döyüş taktikası oldu. Müharibə həm də onu göstərdi ki, xalqımız müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşib.

***– Həm Birinci, həm də İkinci Qarabağ müharibəsində iştirak etmisiniz. Sizcə, son müharibədə qələbəmizin əsasını nə təşkil etdi?***

– Təbii ki, son 44 günlük müharibədə ordumuz nəyə qadir olduğunu göstərdi. Heç şübhəsiz ki, bunun da əsasında Ali Baş Komandan tərəfindən uğurla aparılan ordu quruculuğu siyasəti, mükəmməl hərbi kadr potensialının formalaşması, müasir hərbi silahlanma – bir sözlə, sarsılmaz hərbi qüdrətimiz durur. Xüsusilə ciddi nizam-intizam, ordunun tam püxtələşməsi, zabit və əsgərlərimizin həm psixoloji, həm də döyüş hazırlığının yüksək səviyyədə olması qələbəmizin əsasını təşkil etdi. Birinci Qarabağ müharibəsi zamanı ordumuzda texnika və canlı qüvvə çatışmazlığı var idi. Eyni zamanda insanların hərbi hazırlıqsız döyüşməsi düşmənə əlavə güc vermişdi. Lakin ordu quruculuğunda aparılan uğurlu siyasət 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Ali Baş Komandanın müharibənin gedişini dəqiqliklə izləməsi və birbaşa rəhbərlik etməsi düzgün döyüş taktikasının müəyyənləşdirilməsində və qələbə qazanmağımızda əsas amil oldu. Budur əsl Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun, Azərbaycan xalqının gücü!

Biz Vətənə olan borcumuzu yerinə yetirirdik. Lakin xidmətimiz dövlətimiz tərəfindən yüksək qiymətləndirildi. Ali Baş Komandanın sərəncamları ilə "Azərbaycan bayrağı" ordeni və "Şuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşam. Bundan əvvəl də medallarla təltif olunmuşam. Dövlətimizə, Ali Baş Komandana minnətdarlıq edirəm. Xoşbəxt insanlarıq ki, Vətən müharibəsində, torpaqlarımızın azad olunmasında iştirak etdik. Fəxr edirəm ki, müzəffər Ali Baş Komandanımız var, qalib ordumuz var, güclü Azərbaycanımız var!

Bir məsələni də xüsusi qeyd etməliyəm ki, Naxçıvanda yaşamaq, işləmək, xidmət etmək hər bir hərbi qulluqçu kimi, mənim də qürurlandırır. Bu torpağın hər qayası, hər daşı bir tarixdir. Fürsət tapdıqca Naxçıvanı gəzirəm, daha yaxından tanıyıram. Uzun illər düşmənlə sərhəddə yerləşməsinə baxmayaraq, sabitlik, inkişaf və rifah vardır. Gəncliyə qayğı vardır. Vətəninə, dövlətinə, xalqına sadiq gənclər yetişir, formalaşır. Gəncliyə qayğı olan yerdə, vətənpərvər gənclik olan yerdə isə, deməli, etibarlı gələcək vardır.

***– Son olaraq nə demək istərdiniz?***

– Döyüşlərdən sonra, ilk növbədə, gedib şəhidlərimizi ziyarət etdim. Daha sonra Bakı Beynəlxalq Hava Limanında bizi görənlər böyük coşqu ilə qarşıladılar. Naxçıvan Beynəlxalq Hava Limanında da eyni coşqu vardı, hər kəs Qələbə sevincini bizimlə bölüşdü. Bu da hədsiz sevincimizə səbəb oldu. Mən bunu evdə hər zaman övladlarıma da deyirəm: Vətənin hər qarışı sənin qeyrətindir. Çünki bu Vətən uğrunda yüzlərlə igidimiz şəhidlik zirvəsinə ucalıb. Gənclərə demək istərdim ki, Vətən sevgisini hər şeydən üstün tutsunlar. Vətən üçün hər birimiz müsəlləh əsgər kimi formalaşmalıyıq. Bunun üçün isə dövlətimiz hər bir şəraiti yaradıb.

***– Səmimi müsahibə üçün minnətdarlığımızı bildiririk.***

**Ceyhun MƏMMƏDOV**
**Telli MƏMMƏDOVA**

# Rəyasət Heyətinin növbəti iclası keçirilib

*AMEA Naxçıvan Bölməsində Rəyasət Heyətinin növbəti iclası keçirilib. Əvvəlcə bölmənin sədri, akademik İsmayıl Hacıyev iclas iştirakçılarını gündəlikdəki məsələlərlə tanış edib.*

Sonra Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Tofiq Əliyev "Metalların korroziyası və ondan mühafizə yolları" mövzusunda elmi məruzə edib. Məruzəçi öncə metalların insan həyatında, fəaliyyətin bütün sahələrindəki əhəmiyyəti, metalların mexaniki dağılması, eroziya və korroziya prosesləri haqqında ətraflı məlumat verib. Alim korroziya prosesinin çox ziyanverici olduğunu, metal avadanlıqların sıradan çıxmasının istehsalata əhəmiyyətli dərəcədə təsir etdiyini diqqətə çatdırıb. O bildirib ki, korroziya prosesi il ərzində dünya iqtisadiyyatına, təxminən, 150-200 milyard dollar dəyərində ziyan vurur.

Korroziya prosesinin getmə şəraiti, formaları, mexanizmi slayd vasitəsilə izah olunub.

Sonra AMEA Naxçıvan Bölməsində elmlər doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul, bəzi dissertasiya mövzularının adında qismən dəyişiklik edilməsi haqqında, eləcə də gündəlikdəki digər məsələlər Rəyasət Heyətinin müzakirəsinə çıxarılaraq müvafiq qərarlar qəbul olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Xətt izləyən robot” müsabiqəsi keçirilib.*

## Naxçıvanda məktəblilər arasında robotexnika üzrə ilk müsabiqə



Təhsil nazirinin müavini Heyran Əhmədova muxtar respublikada təhsilin inkişafı istiqamətində atılan addımlardan, bu sahəyə göstərilən diqqət və qayğıdan danışıb.

Müsabiqənin keçirilməsində məqsəd şagirdlərin texnologiya sahəsinə maraq və məlumatlılığını artırmaq, əldə etdiyi bilik və bacarıqlarla robot modellərinin dizaynı, qurulması, proqramlaşdırılması, idarə edilməsi metodlarını öyrətməkdən ibarət olub.

Müsabiqədə şəhər və rayon məktəblərinin VI-IX sinifləri üzrə 7 komanda olmaqla, ümumilikdə, 90 şagird müxtəlif sayda xətt izləyən robotla yarışmışdır. Müsabiqə 4 mərhələdə təşkil olunduğuna görə hər mərhələdə I, II, III yerə layiq görülən şagirdlər diplom və hədiyyələrlə, fəal iştirakına görə seçilən şagirdlər isə diplomla mükafatlandırılmışlar.

Qeyd edək ki, müsabiqə muxtar respublika üzrə bir mərhələdə təşkil edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Seminar-treninq olub

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar hesabatların müvafiq qanunvericiliyə uyğun hazırlanması və təqdim olunmasına dair seminar-treninq keçirilib.*

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə birgə keçirilən tədbirdə Səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq bildirib ki, səhiyyə xidmətlərinin müasir tələblərə uyğunlaşdırılmasında, bu sahənin mövcud maliyyələşmə mexanizmlərinin yeni iqtisadi əsaslarla təkmilləşdirilməsində və əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsində icbari tibbi sığorta sisteminin tətbiqi xüsusi əhəmiyyət kəsb edir. İcbari tibbi sığorta vətəndaşların mənafeyinə yönəlmiş, onları keyfiyyətli və əlçatan tibbi xidmətlərlə təmin etməyə yardım edən bir sistemdir. Muxtar respublikada icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar rayon mərkəzi xəstəxanalarında yenidənqurma işləri aparılıb, ən müasir texnoloji yenilikləri özündə birləşdirən tibbi cihaz və avadanlıqlar alınaraq quraşdırılıb. Səhiyyə İnformasiya İdarəetmə Sistemi qurulub və vahid məlumat bazasının idarə edilməsi üçün server otağı təşkil edilib. Muxtar respublikamızın bütün rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanılıb, tibb işçilərinin əməkhaqları artırılıb.

Sonra aparatın Səhiyyə və tibbi statistika şöbəsinin müdiri Aysel Mikayılova icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar hesabatların hazırlanması və müvafiq qanunvericiliyə uyğun təqdim olunmasına dair məlumat verib.

Aparatın Səhiyyə və tibbi statistika şöbəsinin iqtisadi eksperti Elnur İbrahimov hesabatların hazırlanma və təqdimedilmə qaydaları barədə treninq keçirib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Tədbirlər onlayn şəkildə davam etdirilib



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən pandemiya ilə əlaqədar olaraq tətbiq edilən xüsusi qaydalara ciddi riayət edilməklə dekabr ayında bir sıra mədəni tədbirlər həyata keçirilmişdir.***

Ötən ay muxtar respublikadakı ümumtəhsil məktəblərində “Tariximizi qoruyaq və yaşadaq!” devizi altında keçirilmiş aksiya zamanı toplanmış 460-dan çox maddi mədəniyyət nümunəsi Mədəniyyət Nazirliyinə təhvil verilmiş, bu münasibətlə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında təqdimat mərasimi keçirilmişdir. “Yallılar dünəndən bu günə” kitabının təqdimat mərasiminin keçirilməsi də dekabr ayının əlamətdar mədəni hadisələrindən olmuşdur. Təqdimat mərasimində “Yallılar dünəndən bu günə” kitabı muxtar respublikanın kitabxanalarına, həmçinin təhsil və mədəniyyət müəssisələrinə hədiyyə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə bağlı ay ərzində nazirlik tərəfindən hamiliklə bağlı 2 açıq dərs, 1 kitab müzakirəsi, 1 film nümayişi, 2 mühazirə, 1 ustad dərs olmaqla, ümumilikdə, 7 tədbir keçirilmişdir. Həmçinin ötən ilin iyun ayından start verilmiş “Mədəniyyətin izi ilə” sosial mədəniyyət layihəsinə dekabrın 25-də yekun vurulmuş, layihə qalibləri nazirliyin diplomları ilə təltif olunmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında” 2014-cü il 20 iyun tarixli Sərəncamına uyğun olaraq dekabrın 11-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Heydər Əliyev Muzeyi arasında “Ürəklərdə yaşayan dahi” adlı interaktiv dərs keçilmiş, dərsi muxtar respublikanın 200-dən çox ümumtəhsil müəssisəsi izləmişdir. Həmçinin dekabr ayında Naxçıvan Muxtar Respublikasının Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Heydər Əliyev Muzeyində nazirliyin sistemində fəaliyyət göstərən muzeylərin əməkdaşları üçün “Heydər Əliyev irsinin qorunmasında və təbliğ olunmasında Heydər Əliyev Muzeyinin rolu” mövzusunda tədbir, Naxçıvan Dövlət Rəsm Qalereyasında “Muzeylərdə uçot-mühafizənin təşkili ilə bağlı görülmüş işlər və qarşıya çıxan çətinliklər” mövzusunda dəyirmi masa keçirilmişdir.

Ötən ay Naxçıvan Dövlət Tarix Muzeyində ümumtəhsil məktəblərinin şagirdləri üçün “31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” mövzusunda açıq dərs təşkil edilmişdir. Ümumilikdə isə dekabr ayında ümumtəhsil məktəblərinin şagirdləri üçün muzeylərdə 42 açıq dərs keçilmişdir. Hesabat ayında muxtar respublikadakı muzeyləri 8 min 577 nəfər yerli, 172 nəfər əcnəbi olmaqla, ümumilikdə, 8 min 749 nəfər tamaşaçı ziyarət etmiş, muzeylərə 496 ədəd yeni eksponat daxil olmuşdur.

Muxtar respublikanın kitabxanaları tərəfindən də əlamətdar və tarixi günlərlə, həmçinin tanınmış şəxsiyyətlərin yubileyləri ilə bağlı dekabr ayında bir sıra mədəni tədbirlər həyata keçirilmiş, “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan 23-ü ənənəvi, 3-ü onlayn olmaqla, 26 kitabın müzakirəsi olmuşdur. Sağlamlıq imkanı məhdud 18 uşağa səyyar kitabxana xidməti göstərmiş, “Nağıl günləri” layihəsi çərçivəsində 16 audionağıl hazırlanaraq sosial şəbəkələrdə 36 paylaşım edilmişdir. Ay ərzində kitab həvəskarları üçün şeir, hekayə və poemalardan parçaların bədii qiraət olunduğu 85 video və audiokitab hazırlanaraq nazirliyin “YouTube” kanalında və sosial şəbəkələrdə nümayiş etdirilmişdir.

Muxtar respublikanın yaşayış məntəqələrində fəaliyyət göstərən klub müəssisələrinin əməkdaşlarının əlamətdar və tarixi günlərlə, görkəmli şəxsiyyətlərlə bağlı, eləcə də milli dəyərlərimizin təbliği və yaşadılması istiqamətində 141, mədəniyyət üzrə Elmi-Metodik Mərkəzinin xalq yaradıcılığı ilə bağlı 3, ümumilikdə, 69 videomaterialı nazirliyin “YouTube” kanalına yerləşdirilmiş, sosial şəbəkələrdə paylaşılmışdır.

Naxçıvan Dövlət Film Fondu tərəfindən də ötən ilin son ayında görkəmli kino xadimləri, dünya və Azərbaycan kinosunun inciləri haqqında, eləcə də film çəkilişlərindən maraqlı faktlarla bağlı 103 material hazırlanaraq sosial şəbəkələrdə paylaşımlar edilmişdir. Həmçinin ötən ay Naxçıvan Dövlət Film Fondu tərəfindən film həvəskarları üçün 1-i sənədli olmaqla, ümumilikdə, 3 film nümayiş olunmuşdur.

Dekabr ayında gənclərlə iş sahəsində də bir sıra işlər görülmüş, nazirliyin, eləcə də Naxçıvan şəhər, Şahbuz və Şərur Rayon Mədəniyyət şöbələrinin Gənclər birlikləri üzvlərinin iştirakı ilə “Eynəli bəy Sultanovun Naxçıvan ədəbi mühitinə töhfəsi” və “28 Dekabr – Beynəlxalq Kino Günü” mövzularında onlayn tədbirlər keçirilmiş, onlayn kitab müzakirələri keçirilmişdir.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında ay ərzində yeni hazırlanan tamaşaların məşqləri davam etdirilmiş və ya təhvil verilmişdir.

Dekabr ayında Azərbaycan Gənclər İttifaqı və Azərbaycan Rəqs Assosiasiyasının təşkilatçılığı ilə keçirilmiş 6-cı “Qarabağ-2020” Beynəlxalq İncəsənət Müsabiqəsində Naxçıvan Musiqi Kollecinin qarmon və klarnet ixtisasları üzrə iki tələbəsi müsabiqənin II və III dərəcəli diplomlarına layiq görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## İdman federasiyalarında ötən ilin yekunlarının müzakirəsi keçirilib

***Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının ötən ilin yekunlarına həsr olunmuş iclası keçirilib. Yığıncağın gündəliyində federasiyanın 2020-ci il ərzində fəaliyyəti və görülən işlərin hesabatı olub.***

Tədbiri giriş sözü ilə açan federasiya sədri Nicat Babayev bildirib ki, sağlamlıq imkanları məhdud şəxslərin sağlamlıqlarının qorunması, onların cəmiyyətə inteqrasiyası baxımından idman mühüm əhəmiyyət daşıyır. Bu məqsədlə Paralimpiya Federasiyası bütün kateqoriyadan olan məhdud fiziki imkanlı şəxslərin idman həyatına inteqrasiyası, istedadlı idmançıların aşkara çıxarılması üçün davamlı tədbirlər həyata keçirir. Ötən il pandemiya şəraiti ilə əlaqədar ölkə və beynəlxalq miqyaslı tədbirlərin sayı məhdudlaşsa da, federasiya Gənclər və İdman Nazirliyi ilə birgə müvafiq idman növləri üzrə 4 muxtar respublika, 12 rayon birinciliyi və bir yoldaşlıq görüşü keçirib. Həmçinin ötən il Naxçıvan şəhərindəki “Saat Meydanı” turistik istirahət mərkəzində 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş idman festivalında Paralimpiya Federasiyası üç idman növü üzrə 17 idmançı ilə təmsil olunub.



Nicat Babayev vurğulayıb ki, ötən il Azərbaycan Boccia İdman Federasiyasının katibi və Azərbaycan Milli Paralimpiya Komitəsinin stolüstü tennis üzrə uşaq milli komandasının baş məşqçisi tərəfindən muxtar respublikada müvafiq idman növləri ilə məşğul olan paralimpiyaçılarla onlayn formatda seminarlar keçirilib, idmançılara mövcud vəziyyətlə əlaqədar ev şəraitində məşq proseslərinin təşkili barədə tövsiyələr verilib.

Federasiya sədri sağlamlıq imkanları məhdud şəxslərə yaradılan şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman nazirinin müavini Mirməcid Seyidov muxtar respublikada idmançılara göstərilən qayğıdan, yaradılan şəraitdən danışıb, Ali Məclisin Sədri tərəfindən 2020-ci il 14 fevral tarixdə imzalanmış “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın əhəmiyyətindən, icrası çərçivəsində görülən işlərdən bəhs edib, qarşıda duran vəzifələrdən danışıb.

Paralimpiya Federasiyasının sədr müavini Vüqar Məmmədov Federasiyanın 2020-ci il ərzindəki fəaliyyətinə dair hesabatla çıxış edib.

* * *

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının 2020-ci ilin yekunu və 2021-ci ildə görüləcək işlərə dair hesabat yığıncağı keçirilib. Federasiyanın sədri Elbrus İsayev qeyd edib ki, ölkəmizdə digər sahələrin uğurlu inkişafı ilə yanaşı, basketbol idman növünə də xüsusi önəm verilir. Universitetin idman sahəsindəki uğurlarından bəhs edən rektor qazanılan nailiyyətlərin ölkədə və muxtar respublikada idmanın inkişafına, gənclərin mənəvi fiziki cəhətdən sağlam yetişməsinə göstərilən diqqət və qayğının nəticəsi kimi qiymətləndirib.



Vurğulanıb ki, 2002-ci ildə yaradılan Basketbol Federasiyası da idmanın bu növünün inkişaf etdirilməsini, yeniyetmə və gənclərin idmana cəlb olunmasını, idman yarışlarının kütləviliyinin artırılmasını diqqətdə saxlayıb.

Bildirilib ki, gələcəkdə də federasiya Gənclər və İdman Nazirliyi ilə birgə işini günün tələbləri səviyyəsində qurmalı, eyni zamanda komandaların tərkibinin gücləndirilməsi istiqamətində ardıcıl işlər görməli və bu idman növünün kütləvi hal alması üçün bütün zəruri tədbirlər həyata keçirilməlidir. Cari il üçün federasiyanın tədbirlər planını iştirakçıların diqqətinə çatdıran Elbrus İsayev qeyd edib ki, ötən 6 ay ərzində bu idman növünün təbliği və bu sahədə peşəkar kadrların hazırlanması məqsədilə universitetin basketbol fənni üzrə fənn proqramı hazırlanaraq Məşqçilik ixtisasında seçmə fənnin tədrisinə başlanılıb.

Bədən tərbiyəsi və idman kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Məmmədəli Rəhimov qeyd edib ki, universitetdə tələbələrin fiziki tərbiyə ilə məşğul olması könüllülük prinsipinə əsaslanıb. Bunun üçün ali təhsil müəssisəsində yaradılan idman klubunda 15 idman növü üzrə təcrübəli məşqçilərin rəhbərliyi altında dərsdənkənar məşğələlər təşkil edilir. Bu məşğələlərdə həm idmanın kütləviliyinin artırılmasına, həm də yüksək dərəcəli idmançıların hazırlanmasına ciddi fikir verilir. Muxtar respublikanın Ordubad, Culfa, Babək, Şahbuz, Şərur, Sədərək, Kəngərli rayonlarında və Naxçıvan şəhərində üç qrupdan ibarət 10-u oğlanlardan və Ordubad şəhərində, Culfa rayonunun Yaycı kəndində 2-si qızlardan ibarət, ümumilikdə, 12 komanda fəaliyyət göstərir. Hazırda bu qruplarda 200-dən artıq idmançı məşğul olur.

Sonda çıxışlar olub.

**Xəbərlər şöbəsi**

**İtmişdir**

Şərur rayonu, Aşağı Yaycı kənd sakini Məmmədov Fazil Yaqub oğlunun adına verilmiş torpağın 102013004930 inventar nömrəli plan və ölçüsü itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 76